# Mustafa Ağabəy oğlu Topçubaşov

## Görkəmli cərrah-alim, dövlət xadimi

**Azərbaycan Elmlər Akademiyasının ilk həqiqi üzvlərindən biri, SSRİ Tibb Elmləri Akademiyasının akademiki, Azərbaycan Əməkdar elm xadimi, görkəmli cərrah-alim, ictimai və dövlət xa- [illegible] əy oğlu Topçubaşov 1895-ci ildə Qərbi Azərbaycanın Göygümbət kəndində anadan olmuşdur.**

Qədim İrəvanın Sankt-Peterburq Universitetinin ilk azərbaycanlı professoru Mirzə Cəfər Topçubaşov və Azərbaycan Xalq Cümhuriyyəti ilk parlamentinin sədri Əlimərdan bəy Topçubaşov kimi görkəmli şəxsiyyətlərinin nəslindən olan Mustafa orta təhsilini İrəvan gimnaziyasında almış, 1914-cü ildə ilk təhsilini bitirdikdən sonra Kiyev Tibb Universitetinin tibb fakültəsinə qəbul olunmuşdur. Ali təhsilinin ilk illərindən savadı, elmi biliyi ilə müəllimlərinin diqqətini cəlb etmişdir. 1919-cu ildə təhsilini başa vuran gənc həkim Naxçıvan və Bakı xəstəxanalarında cərrah kimi çalışmışdır. 1930-1975-ci illərdə Azərbaycan Dövlət Tibb Universitetinin cərrahiyyə kafedrasına, 1945-1948-ci illərdə isə Azərbaycan Elmlər Akademiyasının Eksperimental Təbabət İnstitutuna rəhbərlik etmişdir. Mustafa bəy Topçubaşov 1930-cu ildə "Malyariya mənşəli splenomeqaliyanın klinikası, patologiyası və cərrahi müalicəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək professor adına layiq görülür. Eyni zamanda, Azərbaycan Tibb Universitetinin cərrahiyyə kafedrasının müdiri təyin olunur.



1937-ci ildə dünya anesteziologiya elmi tarixində ilk dəfə olaraq orijinal keyitmə üsulunu - injeksion efir-yağ narkozunu - analgeziya üsulunu kəşf etməsi Mustafa Topçubaşovun elmi fəaliyyətində ilk uğuru olur. Bu metod sadəliyinə, həm hazırlanma və tətbiq texnikasının asanlığına, həm də narkoz zamanı dərin narkoz yuxusu, qanda narkotik maddələrin yüksək konsentrasiyada toplanması kimi bir sıra mənfi halların aradan qaldırılmasına imkan verirdi. Bu müsbət xüsusiyyətlərinə görə alimin kəşfi tibb sahəsində geniş tətbiq edilməyə başladı. Efir-yağ qarışığı həmçinin, öddaşı xəstəliyinin sancıları, travmatik şok, tetanus, qıcolma hallarında, müalicə və doğuş zamanı ağrısızlaşdırma vasitəsi kimi istifadə edilirdi.

1945-ci ildə SSRİ Xalq Səhiyyə Komissarlığı Elmi Tibbi Şurası tərəfindən Farmakologiya Komitəsinin iclasında tibb sahəsində geniş tətbiq olunan və özünü doğruldan efir- yağ qarışığının "Analgezin" adı altında istehsal edilməsinə icazə verilmişdir.

Müharibə illərində Azərbaycan Xalq Səhiyyə Komissarlığı Hərbi Xəstəxanalar İdarəsinin baş cərrahı vəzifəsində çalışan Mustafa bəy Topçubaşov SSRİ-də ilk dəfə olaraq təxliyə hospitallarının yaradılmasının təşəbbüskarı olmuş və onun bu təklifi hərbi cərrahlıq işinin təşkilində uğurla istifadə edilmişdir. Azərbaycan tibb elminin inkişafında əvəzedilməz rolu olan Mustafa Topçubaşov 1940-cı ildə Əməkdar elm xadimi adına layiq görülmüş, 1960-cı ildə SSRİ Tibb Elmləri Akademiyasının akademiki seçilmişdir. 1945-1948-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Eksperimental Tibb İnstitutunda direktor vəzifəsində çalışmış, 1951-1956 və 1969-1981-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti olmuşdur.

Akademik Mustafa bəy Topçubaşov 7 monoqrafiya, 5 clddə "Xüsusi cərrahlıq" dərsliklərinin, ümumilikdə 160 elmi işin müəllifidir. Onun redaktəsi ilə kombinasiyalı ağrısızlaşdırma ilə bağlı üç elmi iş toplusu çap olunmuşdur. "Ürək-damar xəstəlikləri və onların profilaktikası", "Xüsusi cərrahlıq", "Yad cisimləri çıxaran aparat və onun tətbiqi", "Normal hipertenziya və onun cərrahi müalicəsi", "Uzunmüddətli analgeziyanın tibbdə tətbiqi" kimi elmi-tədqiqat əsərlərinin müəllifidir. M.Topçubaşov Ümumittifaq Cərrahlar Cəmiyyətinin, Azərbaycan Cərrahlar və Uroloqlar Cəmiyyətinin fəxri sədri olmuşdur. Dəfələrlə Azərbaycan Ali Sovetinə deputat seçilmiş, 1955-1959-cu illərdə isə Ali Sovetin sədri seçilmişdir.

Cərrah, ictimai xadim, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan EA-nın və SSRİ Tibb EA-nın həqiqi üzvü, Bolqarıstan EA-nın müxbir üzvü, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı Mustafa bəy Topçubaşov 1981-ci ildə Bakıda vəfat etmişdir. Azərbaycan EA-nın Elmi-Tədqiqat Eksperimental Klinik Təbabət İnstitutu görkəmli akademikin adını daşıyır. Azərbaycan tibb elminin inkişafında xüsusi xidmətlərini nəzərə alaraq akademik Mustafa Topçubaşovun anadan olmasının 100 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi haqqında 31 iyul 1995-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sərəncam vermişdir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**